# MƏHKƏMƏ-HÜQUQ ŞURASININ BÜLLETENİ

İYUL 2025

# MÜNDƏRİCAT


**Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .......... 3**

**Birinci və apellyasiya instansiyası məhkəmələrində vakant olan 286 dövlət qulluğu vəzifəsi müsahibəyə çıxarılıb ......................... 7**

**Ali Məhkəmə Plenumunun iclası keçirilib ..................... 8**

**"Ailə mübahisələrində mediasiya institutunun tətbiqinin əhəmiyyəti və beynəlxalq təcrübə" mövzusunda dəyirmi masa keçirilib ................ 9**

**Ali Məhkəmədə Türkiyə Respublikası Ali Məhkəməsinin sədr müavininin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib ......................... 11**

**Pakistanın hüquq və ədliyyə naziri ilə görüş keçirilib ....................................... 12**

**Ali Məhkəmədə İraqın Federal Ali Məhkəməsi sədrinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib......................... 13**

**Hakimlərin təlim prosesi davam etdirilir ...................... 14**

**Hakimliyə namizədlərin penitensiar müəssisələrə təlim səfərləri təşkil edilib ...................... 15**

**Hakimliyə namizədlərin Polis Akademiyasına təlim səfəri təşkil edilib ................................. 16**

**Ali Məhkəmənin hakimi Nigar Rəsulbəyova təqaüdə yola salınıb** ........................ 17

**Qərarlar** ........................................................ 18

**Hüquqi aktlar** ........................................................ 24

# Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı



Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu bəndini rəhbər tutaraq qərara alıram:

1. “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq, aşağıdakı hakimlər birinci instansiya məhkəmələrinin hakimləri təyin edilsinlər:

**ağır cinayətlər məhkəmələri üzrə:**

**Bakı Ağır Cinayətlər Məhkəməsi**

Əsgərova-Məmmədova Leyla Səyavuş qızı

Məmmədzadə Səbinə Adil qızı

**Lənkəran Ağır Cinayətlər Məhkəməsi**

Hüseynov Nahid Nəsir oğlu

**Sumqayıt Ağır Cinayətlər Məhkəməsi**

Rzayeva Aynur Tapdıq qızı

**inzibati məhkəmələr üzrə:**

**Bakı İnzibati Məhkəməsi**

Almazova Aysev Mehman qızı

Məlikov Tural Rauf oğlu

**Şəki İnzibati Məhkəməsi**

Hacızadə Fəxri Hümmət oğlu

**Şirvan İnzibati Məhkəməsi**

Hüseynova Amilya Aqil qızı

Nəcəfov Hilal Nəcəfalı oğlu

**kommersiya məhkəmələri üzrə:**

**Bakı Kommersiya Məhkəməsi**

Əhmədova Nərmin Məzahir qızı

**Gəncə Kommersiya Məhkəməsi**

Quliyeva Gülnaz Elxan qızı

**Sumqayıt Kommersiya Məhkəməsi**

Alıyeva Həlimə Rəşid qızı

**Bakı şəhərinin rayon məhkəmələri üzrə:**

**Bakı şəhəri Binəqədi Rayon Məhkəməsi**

Sadıqova Aynurə Vahid qızı

**Bakı şəhəri Xətai Rayon Məhkəməsi**

Hacıyeva Sahibə Cavid qızı

**Bakı şəhəri Qaradağ Rayon Məhkəməsi**

Dadaşova Şəfa Əliövsət qızı

**Bakı şəhəri Nərimanov Rayon Məhkəməsi**

Əlisoy Xalidə Kəramət qızı

Əfəndizadə Mehriban Xalid qızı

Tağıyeva Nərgiz Nazim qızı

**Bakı şəhəri Sabunçu Rayon Məhkəməsi**

İmanova Nigar Arzu qızı

Qədirova Şəbnur Şakir qızı

**rayon (şəhər) məhkəmələri üzrə:**

**Ağcabədi Rayon Məhkəməsi**

Nuriyev Rəşad Mövsüm oğlu

**Bərdə Rayon Məhkəməsi**

Babaşov Fuad Bəhruz oğlu

**Gəncə Şəhər Məhkəməsi**

Cəfərli Orxan Nazim oğlu

Əliyev Asif Əmrah oğlu

Quliyev Camal Yusifəli oğlu

Səfərli Xədicə Əlicabbar qızı

**Goranboy Rayon Məhkəməsi**

Mustafayev Taleh Məhəmmədəli oğlu

**Xaçmaz Rayon Məhkəməsi**

Qasımova Vüsalə Yadigar qızı

**Qusar Rayon Məhkəməsi**

Cəlilov Əli İsa oğlu

**Lənkəran Rayon Məhkəməsi**

Ağabəyov Nicat Rauf oğlu

Aslanov Murad Şamxal oğlu

**Mingəçevir Şəhər Məhkəməsi**

Cəbrayılzadə Elza Vaqif qızı

**Sabirabad Rayon Məhkəməsi**

Allahverdiyev Səlim Məhərrəm oğlu

**Şəmkir Rayon Məhkəməsi**

Məmmədova Şəfəq Ənvər qızı

**Şirvan Şəhər Məhkəməsi**

Məmmədova Səidə Hüseynağa qızı

**Tovuz Rayon Məhkəməsi**

Əliyev Fərid Nadir oğlu

**Yevlax Rayon Məhkəməsi**

Əliyev Kamil Çingiz oğlu.

2. Bu Sərəncam 2025-ci il iyulun 1-dən qüvvəyə minir.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 iyul 2025-ci il

# Birinci və apellyasiya instansiyası məhkəmələrində vakant olan 286 dövlət qulluğu vəzifəsi müsahibəyə çıxarılıb



Apellyasiya, ağır cinayətlər, hərbi, inzibati, kommersiya və rayon (şəhər) məhkəmələrində, ümumilikdə 72 məhkəmədə 286 vakant inzibati vəzifənin (məsləhətçi, hakimin köməkçisi, məhkəmə iclasının katibi) tutulması məqsədilə müsabiqənin müsahibə mərhələsi elan edilib.

Müsabiqənin müsahibə mərhələsində aşağıdakı kateqoriyalara aid şəxslər iştirak hüququna malikdirlər:

- Dövlət qulluğunun müvafiq vəzifəsi üzrə test imtahanından keçdiyini təsdiq edən dövlət qulluğu sertifikatı qüvvədə olan şəxslər;

- Dövlət qulluğu vəzifəsinin tutulması üçün nəzərdə tutulan təhsil tələbi (istiqaməti) üzrə elmlər doktoru elmi dərəcəsi olan şəxslər;

- Dövlət orqanlarında (qurumlarında) siyahısı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 12 yanvar tarixli Qərarı ilə təsdiq edilən vəzifələrdə azı 10 il iş stajı olan şəxslər.

Müsabiqənin müsahibə mərhələsində iştirak etmək istəyən namizədlər avqustun 12-si saat 18:00-dək Dövlət İmtahan Mərkəzinin internet portalında "Dövlət qulluğu üzrə müraciət Forması"nı doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Hüquqşünasları məhkəmələrdə vakant olan inzibati vəzifələrin tutulması üçün müsabiqələrdə iştiraka dəvət edirik.

Daha ətraflı məlumatı Dövlət İmtahan Mərkəzinin saytından əldə etmək olar.

# Ali Məhkəmə Plenumunun iclası keçirilib



2025-ci ilin iyulun 4-də Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.

İclasda “İnzibati mübahisələrə dair işlər üzrə məhkəmə qaydasında tətbiq edilən müvəqqəti xarakterli müdafiə tədbirləri haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 2023-cü il 4 oktyabr tarixli 14 nömrəli Qərarının tətbiqi ilə bağlı aparılmış monitorinqin nəticələrinə dair arayış müzakirə edilib.

“İnzibati mübahisələrə dair işlər üzrə məhkəmə qaydasında tətbiq edilən müvəqqəti xarakterli müdafiə tədbirləri haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 2023-cü il 4 oktyabr tarixli 14 nömrəli Qərarına əlavə və dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun Qərar layihəsi də müzakirəyə çıxarılıb və müvafiq qərar verilib.

Həmçinin “Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslər üçün cəzaçəkmə müəssisəsinin növünün məhkəmələr tərəfindən təyin edilməsi təcrübəsi haqqında” və “Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun bəzi qərarlarının qüvvədən düşmüş hesab edilməsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərar layihələri barədə məlumat verilib.

İclasda “Azərbaycan Respublikası Ali Məhkəməsinin məhkəmə kollegiyalarının tərkiblərinin təşkili barədə” 2024-cü il 9 oktyabr tarixli 10 nömrəli Plenum qərarında dəyişiklik edilməsi haqqında Qərar səsverməyə qoyularaq qəbul edilib.

# “Ailə mübahisələrində mediasiya institutunun tətbiqinin əhəmiyyəti və beynəlxalq təcrübə” mövzusunda dəyirmi masa keçirilib




2025-ci ilin 8 iyul tarixində Azərbaycan Respublikasının Ali Məhkəməsində “Ailə mübahisələrində mediasiya institutunun tətbiqinin əhəmiyyəti və beynəlxalq təcrübə” mövzusunda dəyirmi masa keçirilib.

Ailə mübahisələri üzrə nikahın pozulması hallarının artan tendensiyası fonunda təşkil edilən tədbirin məqsədi bu istiqamətdə məhkəmə təcrübəsinin təhlili, mübahisələrin məhkəmədənkənar həlli üsullarına xüsusi yanaşmanın və beynəlxalq təcrübənin tətbiqi məsələlərinin müzakirə edilməsi olub. Tədbirdə Ali Məhkəmənin Mülki kollegiyasının sədri Sənan Hacıyev, Türkiyə Respublikası Ali Məhkəməsi (Yargıtay) sədrinin müavini Adem Albayrak, Azərbaycan Respublikası Mediasiya Şurasının İdarə Heyətinin sədri Nadir Adilov, eləcə də hakimlər, mediatorlar və aidiyyəti qurumların nümayəndələri iştirak ediblər.

Çıxışlar zamanı ailə institutunun əhəmiyyətinə toxunularaq qeyd olunub ki, Azərbaycan Respublikasının Konstitusiyasında da ailə cəmiyyətin əsas özəyi kimi əks olunub. Bu baxımdan hər kəs ailə institutunun qorunmasına, ailədaxili münasibətlərin sağlam əsaslarda qurulmasına və mübahisələrin dinc, məhkəmədənkənar yollarla həllinə töhfə verməlidir. Bildirilib ki, alternativ mübahisə həlli mexanizmlərinin tətbiqi tərəflər arasında qarşılıqlı anlaşmanın və sosial barışın təmin edilməsinə, habelə məhkəmələrdə iş yükünün azaldılmasına xidmət edir.

Bununla yanaşı, boşanmaların azalması məqsədilə ailə mübahisələrinin həllində xüsusi yanaşmanın tətbiqinin zəruriliyi vurğulanaraq, alternativ həll üsullarının önəmi qeyd edilib. Həmçinin bildirilib ki, boşanmaların sayının azaldılması və qanunvericiliyin və məhkəmə təcrübəsinin təkmilləşdirilməsi üçün birgə əməkdaşlıq əsas prioritetlərdəndir. Bu istiqamətdə qardaş Türkiyənin müsbət təcrübəsinin faydalı olduğu vurğulanıb.

Sonra Mediasiya Şurasının İdarə Heyətinin üzvü Əli Nəbiyev “Azərbaycanda mediasiyanın tətbiqi və inkişaf dövrü” mövzusunda təqdimatla çıxış edərək, ölkəmizdə mediasiya institutunun formalaşma mərhələləri və

əldə olunmuş nailiyyətlərdən danışıb. Bildirilib ki, bu gün ailə mübahisələri mediasiya sahəsində 80 faiz yer tutur və onların 30 faizi barışıqla həll olunur.

Sabunçu Rayon Məhkəməsinin hakimi Adilə Paşayeva isə "Ailə mübahisələrində mediasiya institutunun tətbiqinin effektivliyi və məhkəmə təcrübəsində rast gələnən problemlər" mövzusunda təqdimatla çıxış edib, bu sahədə mövcud olan çətinliklər və mediasiyanın potensial faydaları barədə iştirakçılara geniş məlumat verib.

Türkiyə Respublikası Ali Məhkəməsinin sədr müavini Adem Albayrak "Türkiyədə ailə mediasiyası təcrübələri və mediasiya müqavilələrinin hüquqi qüvvəsi" mövzusunda çıxış edərək, mediasiyanın tarixi və qardaş ölkənin təcrübəsi haqqında iştirakçılara ətraflı məlumat verib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Aparatının Hüquqi təminat şöbəsinin müdiri Taliyə İbrahimova ailə institutunun əhəmiyyəti və onun cəmiyyətdəki rolunu qeyd edib. Məhkəmələrin ailə mübahisələrinin həllindəki əhəmiyyəti vurğulanıb və bu sahədə Ali Məhkəmə tərəfindən vahid məhkəmə təcrübəsinin formalaşdırılmasına mühüm töhfə verildiyi diqqətə çatdırılıb.

Tədbir müzakirələrlə davam etdirilib, iştirakçılar arasında təcrübə mübadiləsi aparılıb və gələcək əməkdaşlıq imkanları nəzərdən keçirilib.

# Ali Məhkəmədə Türkiyə Respublikası Ali Məhkəməsinin sədr müavininin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib



2025-ci ilin 7 iyul tarixində ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Ali Məhkəməsinin (Yargıtay) sədr müavini Adem Albayrak və 2-ci Hüquq Dairəsinin üzvləri ilə Azərbaycan Respublikasının Ali Məhkəməsində görüş keçirilib.

Görüşdə çıxış edən Ali Məhkəmənin sədri İnam Kərimov qonaqları salamlayaraq onları Azərbaycanda görməkdən məmnun olduğunu bildirib. Azərbaycan və Türkiyə arasında bütün sahələrdə olduğu kimi, məhkəmə sahəsində də əlaqələrin inkişaf etdiyi vurğulanıb. Qeyd edilib ki, məhkəmə sistemlərinin təcrübə mübadiləsi hüquqi islahatlara töhfə verir, məhkəmə fəaliyyətinin səmərəliliyini daha da artırır.

Həmçinin məhkəmələrdə vətəndaşların hüquqlarının müdafiəsi, müasir idarəçilik və ədalət mühakiməsinin şəffaf təşkili sahəsində qarşılıqlı təcrübənin öyrənilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

Səmimi qəbula və  qonaqpərvərliyə görə təşəkkür edən Adem Albayrak isə çıxışında bildirib ki, Azərbaycan və Türkiyə arasında münasibətlər yalnız siyasi və mədəni sahədə deyil, hüquqi əməkdaşlıq baxımından da strateji əhəmiyyət daşıyır. Vurğulanıb ki, son illərdə məhkəmə-hüquq islahatları çərçivəsində Azərbaycanın əldə etdiyi uğurlar diqqətəlayiqdir və bu sahədə Türkiyənin də dəstəyi və təcrübəsi hər zaman açıqdır. Bu cür görüşlərin hüquqşünaslar arasında birbaşa əlaqələrin qurulmasına şərait yaratdığı xüsusi qeyd edilib.

Daha sonra "Mənəvi zərərin ödənilməsi barədə Türkiyə qanunvericiliyinin tətbiqi üzrə məhkəmə təcrübəsinin öyrənilməsi" mövzusunda dəyirmi masa təşkil olunub. Tədbirdə hər iki ölkədən olan hüquqşünas və hakimlər arasında fikir mübadiləsi aparılıb, konkret məhkəmə presedentləri üzərində təhlillər verilib. Müzakirələr zamanı mənəvi zərərin qiymətləndirilməsi, kompensasiyanın miqdarı, hüquqi əsaslandırmalar və ictimai ədalət prinsipləri baxımından yanaşmalar müqayisə edilib.

Tədbirin sonunda tərəflər belə görüşlərin davam etdirilməsinin vacibliyini vurğulayıb və qarşılıqlı əlaqələrin daha da dərinləşdirilməsi istiqamətində konkret təşəbbüslərin hazırlanması barədə razılığa gəliblər.

# Pakistanın hüquq və ədliyyə naziri ilə görüş keçirilib



2025-ci ilin 11 iyul tarixində ölkəmizdə səfərdə olan Pakistan İslam Respublikasının hüquq və ədliyyə naziri Azam Nazeer Tararın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasının Ali Məhkəməsində olub.

Qonaqları salamlayan Ali Məhkəmənin sədri İnam Kərimov xalqlarımızın ortaq dini, tarixi və mədəni dəyərlərə əsaslanan qardaşlıq münasibətlərindən bəhs edib. Qeyd olunub ki, ölkələrimiz arasında qarşılıqlı etimada və dəstəyə əsaslanan əməkdaşlıq əlaqələri bütün sahələrdə, o cümlədən hüquq və ədliyyə sistemində də daim inkişaf edir.

Görüşdə ölkəmizin məhkəmə sistemində aparılan islahatlar və hüquqi dövlət quruculuğu sahəsində əldə olunan nailiyyətlər barədə qonaqlara ətraflı məlumat verilib. Həmçinin məhkəmə orqanları arasında əməkdaşlığın gücləndirilməsi üçün geniş potensialın mövcud olduğu vurğulanıb. Məhkəmə sistemlərinin inkişafı, hüquq islahatları, hakimlərin tədrisi və ixtisasartırması sahələrində təcrübə mübadiləsinin aparılmasının əhəmiyyəti qeyd edilib.

Pakistanın hüquq və ədliyyə naziri Azam Nazeer Tarar öz növbəsində səmimi qəbula görə təşəkkür edib və Azərbaycanla hüquq sahəsində əməkdaşlığın gücləndirilməsinin iki ölkənin məhkəmə sistemləri üçün faydalı olacağını bildirib. Hüquq sahəsində bilik və təcrübə mübadiləsinin qarşılıqlı fayda verəcəyi vurğulanıb, bu istiqamətdə praktiki addımların atılmasının zəruriliyi diqqətə çatdırılıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

# Ali Məhkəmədə İraqın Federal Ali Məhkəməsi sədrinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib



2025-ci ilin iyulun 15-də Azərbaycan Respublikasının Ali Məhkəməsində İraq Respublikası Federal Ali Məhkəməsinin sədri Munther İbrahim Hüsseynin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.

Qonaqları salamlayan Ali Məhkəmənin sədri İnam Kərimov İraqla Azərbaycan arasında dostluq və əməkdaşlıq münasibətlərinin yüksələn xətlə inkişaf etdiyini bildirib. Görüş zamanı ölkəmizin məhkəmə sisteminin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, məhkəmə sistemində müasir informasiya texnologiyalarından istifadə genişlənir, hakim vəzifəsinə seçim prosedurları beynəlxalq standartlara uyğunlaşdırılır, qanunvericilik bazası isə davamlı şəkildə yenilənir.

Məhkəmə sahəsində ikitərəfli əlaqələrin genişləndirilməsi, qarşılıqlı təcrübə və informasiya mübadiləsinin təşviqi, eləcə də əməkdaşlığın dərinləşdirilməsi üçün əlverişli imkanların mövcudluğu vurğulanıb.

Səmimi qəbula görə təşəkkürünü bildirən nümayəndə heyətinin rəhbəri Munther İbrahim Hüsseyn iki ölkə arasında məhkəmə-hüquq sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini qeyd edib. O, Azərbaycan məhkəmə sistemində aparılan islahatları və əldə olunan nailiyyətləri yüksək qiymətləndirib, bu sahədə təcrübə mübadiləsinin faydalı olacağını bildirib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Hakimlərin təlim prosesi davam etdirilir



Hakimlərin davamlı tədrisinin təkmilləşdirilməsi məqsədilə onların müvafiq təlimlərə cəlb edilməsi üçün Məhkəmə-Hüquq Şurası tərəfindən zəruri tədbirlər həyata keçirilməkdədir. Məhkəmə-Hüquq Şurasının Tədris Planına uyğun olaraq cari il ərzində Məhkəmə-Hüquq Şurası, habelə Şuranın müraciətinə əsasən Ədliyyə Akademiyası tərəfindən ümumilkidə 30 tədris kursunda 1062 hakim iştirak edib.

Bundan başqa, Ədliyyə Nazirliyi ilə birgə həyata keçirilən tədbirlər çərçivəsində birinci və apellyasiya instansiyası məhkəmələrinin hakimləri üçün "Hakimlik fəaliyyətində stres faktoru və onun idarə olunması" mövzusunda Bakı, Sumqayıt, Şəki və Şirvan şəhərlərində keçirilmiş təlimlərdə 70-ə yaxın hakim iştirak edib.

Təlimlər hakimlərin emosional dayanıqlılığının gücləndirilməsi, stresin səbəblərinin daha dərindən anlaşılması və bu hallar qarşısında praktiki idarəetmə bacarıqlarının inkişaf etdirilməsi məqsədi daşıyıb.

# Hakimliyə namizədlərin penitensiar müəssisələrə təlim səfərləri təşkil edilib




Ədliyyə Akademiyasında uzunmüddətli təlimə cəlb edilmiş hakimliyə namizədlər Ədliyyə Nazirliyinin Pentensiar Xidmətinin Bakı İstintaq Təcridxanasında, o cümlədən 4 və 10 saylı cəzaçəkmə müəssisələrində və Qobustan Penitensiar Müəssisəsində təlim səfərlərində olub. Təlim səfərində Məhkəmə-Hüquq Şurası Aparatının əmakdaşları da iştirak edib.

Hakimliyə namizədlər azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslər üçün cəzaçəkmə müəssisəsinin növünün müəyyən edilməsinin məhkumların həyatına və islah prosesinə təsirini yaxından müşahidə edib, cəzaçəkmə müəssisələrində və istintaq təcridxanasında yaradılmış şəraitlə, o cümlədən məhbusların yataqxanaları, istehsalat sahəsi, kitabxana, cərimə təcridxanası, görüş otaqları, yeməkxana, klub, telefon danışığı məntəqələri və sair ilə tanış olublar.

# Hakimliyə namizədlərin Polis Akademiyasına təlim səfəri təşkil edilib




Ədliyyə Akademiyasında təlimə cəlb edilmiş hakimliyə namizədlər tanışlıq məqsədilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasında olublar.

Akademiyanın rəisi, polis general-mayoru Canpolad Daanov hakimliyə namizədlərə Polis Akademiyasının tarixi, habelə təhsil imkanlarının üstünlükləri barədə ətraflı məlumatlar vermişdir.

Səfər çərçivəsində həmçinin, Məhkəmə-Hüquq Şurası Aparatının əməkdaşları ilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin bir sıra struktur bölmələrinin rəhbərliyinin iştirakı ilə görüş keçirilmişdir. Görüşdə cinayət təqibi və ədalət mühakiməsinin həyata keçirilməsi ilə bağlı məsələlər üzrə fikir mübadiləsi aparılmış, qarşılıqlı maraq doğuran məsələlərin həlli istiqamətində müzakirələrin davam etdirilməsinin vacibliyi vurğulanmışdır.

# Ali Məhkəmənin hakimi Nigar Rəsulbəyova təqaüdə yola salınıb



Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati kollegiyasının hakimi Nigar Rəsulbəyovanın təqaüdə yola salınması münasibətilə tədbir keçirilib.

Tədbirdə çıxış edən Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov Nigar Rəsulbəyovanın uzun illər müxtəlif instansiya məhkəmələrində çalışdığını, 2007-ci ildən isə Ali Məhkəmədə hakimlik fəaliyyətinə başladığını diqqətə çatdırıb. Onun peşəkar və təcrübəli hakim kimi məhkəmə sisteminin inkişafına, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, qanunun aliliyinin təmin olunmasına mühüm töhfə verdiyi vurğulanıb. Nigar Rəsulbəyovanın bundan sonra da öz zəngin təcrübəsini hüquq ictimaiyyəti ilə bölüşəcəyinə əminlik ifadə olunub.

Nigar Rəsulbəyova da öz növbəsində Ali Məhkəmədə işlədiyi dövrlə bağlı xoş təəssüratlarını bölüşərək, ona göstərilən diqqət və qayğıya görə təşəkkür edib.

Sonda Nigar Rəsulbəyova “Məhkəmə-Hüquq Şurasının 20 illik yubiley medalı” ilə təltif olunub.

# Mülki işlər üzrə ★★★ statuslu qərar

**2[102]-445/2025 xülasə**

**Kateqoriyası:** Çoxmənzilli binanın sahə mülkiyyətçilərinin binanın ümumi əmlakına paylı mülkiyyət hüququna müdaxilənin əsasları, binanın ümumi əmlakının idarə edilməsi məsələləri ilə bağlı subyektiv hüquq.

**Mübahisəli hüquqi məsələnin qısa məzmunu:**

Cavabdeh MMC ilə çoxmənzilli yaşayış binasının sakinləri arasında binaya xidmətlərin göstərilməsinə dair müqavilələr bağlanmış və MMC tərəfindən binadakı liftlərdə kartla istifadə sistemi tətbiq edilmişdir.

Hazırda sakinlərdən bir neçəsi ümumən kart sisteminin ləğvi ilə yanaşı, xidmət haqqının ödəməməsi səbəbilə MMC tərəfindən liftdən istifadə kartlarının deaktiv edilməsinin qadağan edilməsi barədə iddia qaldırmışlar.

Birinci instansiya məhkəməsi iddianı tam rədd etmiş, apellyasiya məhkəməsi isə yeni qətnamə qəbul etməklə, liftlərdə kart sisteminin ləğv edilməsi hissəsində təmin etmişdir. Kassasiya instansiyası məhkəməsi aşağıda qeyd olunanlara əsasən bu mövqe ilə razılaşmamışdır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyi:

Mülki Məcəllənin 227.1-ci və Mənzil Məcəlləsinin 35.1-ci maddələrinə əsasən çoxmənzilli binanın ümumi əmlakı, o cümlədən liftlər, bina sakinlərinin ümumi paylı mülkiyyətindədir.

Mülkiyyətçinin ona mənsub əmlaka (əşyaya) öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam verməsi dövlət tərəfindən tanınır və qorunur, bununla belə bu hüquq da mütləq deyil, qanunda və ya müqavilədə müəyyən edilən məhdudiyyətlərə məruz qala bilər (Mülki Məcəllə, maddə 152.3). Bunlardan hər hansı birinin olmaması istənilən digər əsaslarla mülkiyyət hüququna müdaxiləni istisna edir. Çünki mülkiyyət hüququnun, o cümlədən xüsusi mülkiyyət hüququnun qanunla qorunması konstitusion hüquqdur.

Baxılan işdə belə bir qanuni əsas nə Mülki, nə Mənzil Məcəllələrində, nə də digər qanunlarda nəzərdə tutulmayıb, eyni zamanda tərəflər arasında bağlanmış xidmət müqaviləsində də belə bir məhdudlaşdırıcı əsas mövcud deyil.

O da qeyd olunmalıdır ki, çoxmənzilli binanın idarəetmə orqanı binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağıdır. Binanın sahə mülkiyyətçiləri tərəfindən MMMC yaradıldığı hallarda sahə mülkiyyətçilərinin ümumi yığıncağı öz səlahiyyətlərinin cəmiyyətinin iştirakçılarının ümumi yığıncağına verilməsi barədə qərar qəbul edə bilər (Mənzil Məcəlləsi, maddə 43.1, 44.6). Kooperativ binanın tikintisi tam başa çatdıqdan və həmin binada mövcud olan yaşayış və qeyri-yaşayış sahələrinin ümumi sayının 50%-dən çoxuna mülkiyyət hüququ kooperativin üzvlərinə keçdikdən sonra 1 ay ərzində kooperativ MMMC-yə çevrilməsi barədə qərar qəbul edilməlidir (Mənzil Məcəlləsi, maddə 109.5). Bu halda binanın sahə mülkiyyətçilərinin maraqlarına aid məsələlər üzrə mülki prosessual hüquq qabiliyyəti həmin MMMC-yə aiddir, yəni bununla bağlı iddialar MMMC tərəfindən qaldırıla bilər.

Baxılan işdən görünür ki, binanın tikintisi başa çatmış, lakin sahə mülkiyyətçilərinin müştərək cəmiyyəti (MMMC) yaradılmamışdır. Belə olan halda, hazırda mübahisəli çoxmənzilli binaların idarəetmə orqanı sahə mülkiyyətçilərinin ümumi yığıncağı hesab olunur və iş materiallarında liftdən istifadə və ona məhdudiyyətin

tətbiq edilməsi qaydaları ilə bağlı bina sakinlərinin ümumi yığıncağının qərarı da yoxdur.

Belə olan halda, cavabdeh MMC-nin iddiaçıların liftdən istifadələrinə xidmət haqqının ödənilməsinə görə məhdudiyyət (kartın deaktiv edilməsi) tətbiq etməsi onların mülkiyyət hüququna müdaxilədir və Mülki Məcəllənin 157.4-cü maddəsinə əsasən iddiaçıların bu müdaxilədən müdafiə hüquqları vardır. Cavabdehin mənzil mülkiyyətçilərinin liftdən istifadə kartlarının deaktiv edilməsində əsas məqsədin kommunal və xidmət haqlarının ödənilməsini hər dəfə məhkəməyə müraciət etmədən daha effektiv təmin etmək olması barədə dəlilləri isə qanunda və müqavilədə göstərilmədiyi təqdirdə mülkiyyətə müdaxiləyə haqq qazandırmır. Digər tərəfdən, qanunvericilikdə çoxmənzilli binanın sahə mülkiyyətçisinin ümumi əmlakın saxlanması xərclərini vaxtında və tam məbləğdə çəkməkdən boyun qaçırmasına görə inzibati məsuliyyəti nəzərdə tutulub (İXM, maddə 393-1.4). Yəni məhkəməyə müraciət edilmədən də qeyd edilən hüquqi müdafiə vasitəsindən istifadə edilməklə mülkiyyətçinin həmin xərclərə cəlb edilməsini təmin etmək mümkündür.

Bununla belə, iddiaçılar liftlərə qoyulmuş kart sisteminin bütövlükdə ləğvini deyil, mülkiyyətçi olaraq özlərinə münasibətdə liftlərdən istifadəyə tətbiq edilən məhdudiyyətin (kartın deaktiv edilməsi, liftdən istifadəni məhdudlaşdıran digər hallar) aradan qaldırılmasını tələb edə bilərlər.

Qeyd edilməlidir ki, çoxmənzilli yaşayış binalarında liftlərdən xüsusi kart vasitəsilə istifadə edilməsi (kart sisteminin tətbiqi) liftlərin təmiz saxlanması, onların texniki baxımından daha uzun müddətli saz vəziyyətdə istismarı, eləcə də bina sakinlərinə təhlükəsiz şərait yaradılması, kənar şəxslərin liftlərə daxil olmasının qarşısını almaq məqsədi daşıyır ki, bu sistemin qalması həm binanın digər sakinləri, eləcə də iddiaçıların özlərinin təhlükəsizliyi baxımından da məqsədəuyğundur.

**Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.*

# Cinayət işləri üzrə ★★★ statuslu qərar

**1[102]-371/2025 xülasə**

**İşin halları:**

İrəli sürülmüş ittihama əsasən, təqsirləndirilən şəxs satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitəni əldə etmiş, saxlamış və daşımışdır.

**Birinci instansiya məhkəməsinin mövqeyi:**

Birinci instansiya məhkəməsinin hökmünə əsasən, Cinayət Məcəlləsinin 234.2-ci maddəsi ilə nəzərdə tutulan cinayət əməlini törətməkdə təqsirli bilinib 3 il 6 ay müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir.

Apellyasiya instansiya məhkəməsinin mövqeyi:
Hökmdən müdafiəçi tərəfindən verilmiş apellyasiya şikayəti təmin edilməmiş, hökm dəyişdirilmədən saxlanmışdır.

**Azərbaycan Respublikası Ali Məhkəməsinin mövqeyi:**

Məhkumun müdafiəçisi tərəfindən verilmiş kassasiya şikayəti qismən təmin edilmiş, apellyasiya instansiyası məhkəməsinin qərarı verilmiş kassasiya şikayətinə münasibətdə dəyişdirilmişdir. Məhkumun əməli Cinayət Məcəlləsinin 234.2-ci maddəsindən həmin Məcəllənin 234.1-ci maddəsinə tövsif edilərək 3 il müddətə azadlıqdan məhrumetmə cəzası təyin edilmişdir.

**Azərbaycan Respublikası Ali Məhkəməsinin əsaslandırması:**

Məhkəmə kollegiyası qeyd etmişdir ki, aşağı instansiya məhkəmələri şəxsin “satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitəni əldə etmə, daşıma və saxlama”ya görə cinayət məsuliyyətini nəzərdə tutan Cinayət Məcəlləsinin 234.2-ci maddəsi ittiham olunması və məhkum olunması nəticəsinə gələrkən kifayət qədər mötəbər sübutlara əsaslanmamışlar.
Belə ki, şəxsin tutulmasında iştirak etmiş və iş üzrə şahid qismində dindirilmiş polis əməkdaşları da məhkum edilmiş şəxsin üzərində aşkar edilmiş narkotik vasitələri satış məqsədi ilə əldə etdiyini təsdiq edən ifadə verməmiş, göstərmişlər ki, şəxs tutularkən üzərində aşkar olunmuş narkotik vasitələri şəxsi istifadəsi üçün üstündə daşımaqla gəzdirdiyini bildirmişdir.
Qanunun tələbindən də göründüyü kimi, ittiham tərəfi məhkum edilmiş şəxsin mobil telefonunda aşkar edilmiş mesajları göndərmiş şəxslərlə sonuncunun narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı əlaqələrinin olub-olmamasını müəyyən etmək məqsədilə zəruri istintaq hərəkətlərini yerinə yetirməli, nəticəsindən asılı olaraq bu və ya digər qərar qəbul etməli idi. Lakin, iş materiallarından görünür ki, məhkum edilmiş şəxsin mobil telefonunda aşkar olunmuş mesajlarla bağlı nəinki mesajları göndərmiş şəxslər müəyyən edilib dindirilməmiş, həmin mesajlarla bağlı sonuncunun özünə də heç bir sual verilməmiş və həmin mesajları göndərmiş şəxslərlə əlaqələrinə aydınlıq gətirilməmişdir.
Məhkəmə kollegiyası həmçinin qeyd etmişdir ki, ibtidai araşdırma orqanının və aşağı instansiya məhkəmələrinin məhkum edilmiş şəxsin mobil telefonunda aşkar edilmiş, onun tutulmasından 40-45 gün əvvəl ünvanlanmış mesajların mətnlərinin heç bir araşdırma aparmadan üzərində aşkar edilmiş və 3 gün əvvəl əldə etdiyi narkotik vasitələrin satış məqsədi ilə əldə etməsini təsdiq edən sübut kimi qəbul etmələri əsassız olmuşdur.
Beləliklə, məhkəmə kollegiyası hesab etmişdir ki, iş üzrə toplanmış sübutlarla məhkum edilmiş şəxsin “satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitəni şəxsi istehlak məqsədilə əldə etmə, saxlama, hazırlama,

emal etmə, daşıma” cinayəti törətməsi kifayət qədər sübuta yetirildiyindən, onun əməli “satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitəni əldə etmə, saxlama və daşıma”ya görə cinayət məsuliyyətini nəzərdə tutan Cinayət Məcəlləsinin 234.2-ci maddəsindən, “Satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitəni əldə etmə, saxlama, hazırlama, emal etmə, daşıma” ya görə cinayət məsuliyyətini nəzərdə tutan Cinayət Məcəlləsinin 234.1-ci maddəsinə tövsif edilməli və o, həmin maddə ilə cəzalandırılmalıdır.

**Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.*

# İnzibati işlər üzrə ★★★ statuslu qərar

**2-1[102]-3135/2024 xülasə**

**İşin nömrəsi: 2-1(102)-3135/2024**

Mübahisəli hüquqi məsələnin qısa məzmunu: əmək pensiyasının təyin olunması barədə qərarın ləğv olunması və ya dəyişdirilməsi ilə bağlı inzibati icraatın aparılması; qərarın dəyişdirilməsi və ya ləğv olunması üçün əsas olan halın inzibati orqana məlum olma vaxtı; 1 (bir) illik müddət şərti; etimad hüququ; hüquqi müəyyənlik.

1. Nəzərə almaq lazımdır ki, inzibati orqan qüvvədə olan əlverişli inzibati aktın qanunsuz olması ilə bağlı əsaslı məlumatlar əldə etdiyi halda, inzibati icraat haqqında qanunvericiliyin tələbləri baxımından, xidməti mövqeyinə görə həmin inzibati aktın qəbul edilməsi üzrə əvvəlki inzibati icraatı təzələməyə və icraat aparmağa, icraat çərçivəsində inzibati aktın ləğvini və ya dəyişdirilməsini şərtləndirən halların mövcudluğunu müəyyən etməyə borcludur. Bu zaman inzibati orqan tərəfindən şəxsin həmin inzibati akta etimad hüququnun mövcudluğu, şəxsin etimadının qanunla qorunub-qorunmadığı "İnzibati icraat haqqında" Qanunun 67-ci, xüsusən də 67.5-67.13-ci maddələrinin müddəaları baxımından yoxlanılmalıdır. İnzibati orqan yalnız bu halların müəyyən edilməsindən sonra inzibati aktın ləğvi və ya dəyişdirilməsi və ya inzibati aktın ləğvi və ya dəyişdirilməsindən imtina barədə qərar qəbul etməyə haqlıdır.

2. Şəxsə əmək pensiyasının cavabdehin özü tərəfindən təyin olunduğu hallarda, cavabdeh prinsipcə, özünün əvvəlki təyinatla bağlı qərarının tamamilə və ya qismən səhv olduğunu müəyyən etdikdə, sonradan həmin qərarı ləğv etmək və ya  dəyişdirməklə bağlı yeni qərar qəbul etməkdə haqlıdır... Lakin inzibati orqanların malik olduğu bu səlahiyyətin həyata keçirilməsi müəyyən məhdudiyyətlərə tabedir və yalnız qanunvericiliklə dəqiq müəyyənləşdirilmiş müddətdə və prosedurlar çərçivəsində həyata keçirilə bilər... Əvvəlki qərarın ləğvi və ya dəyişdirilməsi məsələsinə münasibətdə hüquqi təhlükəsizliyin və sabitliyin qorunması baxımından qanunvericiliyin müəyyən etdiyi mühüm təminatlardan biri "İnzibati icraat haqqında" Qanunun 67.12-ci maddəsində təsbit olunmuş müddətlə bağlı təminatdır. Həmin maddəyə əsasən, qanunsuz inzibati akt, həmin aktın ləğv olunmasını şərtləndirən hallar məlum olduğu gündən 1 il ərzində ləğv edilə bilər. Qanunun imperativ xarakter daşıyan həmin normasına görə, inzibati orqan tərəfindən əvvəllər qəbul edilmiş qanunsuz inzibati akt, Qanunun 67.6.1-ci maddəsində sadalanan hallar istisna olmaqla, qalan digər hallarda yalnız inzibati aktın ləğv olunmasına, yaxud dəyişdirilməsinə səbəb olan hal və ya hallar inzibati orqana məlum olduğu gündən 1 il ərzində ləğv oluna, yaxud dəyişdirilə bilər.

3. "İnzibati icraat haqqında" Qanunun 67.12-ci maddəsində təsbit olunmuş sözügedən müddətlə bağlı məhdudiyyət ümumən konstitusion dəyər olan hüquqi dövlət prinsipindən irəli gəlir və hüquqi sabitliyin, müəyyənliyin və təhlükəsizliyin təmin edilməsi məqsədlərinə xidmət edir. Buna görə, hüquq münasibətləri, o cümlədən inzibati orqanlarla yaranmış münasibətlər davamlı təftiş olunma riski altında buraxıla bilməz. Belə yanaşma şəxsin hüquqi vəziyyətində qeyri-müəyyənliyə gətirib çıxarardı, onları öz davranışlarını və həyat şəraitlərini planlaşdırmaq imkanından məhrum edərdi, inzibati orqanların fəaliyyətinə münasibətdə isə səmərəli və proqnozlaşdırıla bilən idarəçilik qaydasının təşəkkül tapmasına mane olardı. Bu mənada, inzibati orqanın müvafiq səlahiyyəti qanunsuz olduğunu güman etdiyi inzibati aktın hər bir halda deyil, mütləq qanunvericilikdə təsbit olunmuş konkret təminatlara riayət etməklə ləğv etmək və ya dəyişdirmək imkanı kimi təfsir olunmalıdır. Yuxarıda da qeyd edildiyi kimi "İnzibati icraat haqqında" Qanun belə təminatların sırasına həm də 67.12-ci maddədə təsbit olunmuş müddətlə bağlı məhdudiyyətləri aid etmişdir.

4. Beləliklə, inzibati orqan şəxsə pensiya təyin olunması barədə əvvəllər qəbul etdiyi qərarın ləğv olunması, yaxud dəyişdirilməsi barədə qərar qəbul etmək üçün yuxarıda qeyd olunduğu kimi, "İnzibati icraat haqqında" Qanunun tələblərinə uyğun inzibati icraat aparmalıdır. Yalnız apardığı inzibati icraat çərçivəsində həmin

Qanunun 67.12-ci maddəsində olan şərtlər mövcud olduğu halda (inzibati aktın ləğv olunmasına səbəb olan hal(lar)ın mövcud olması, həmin hal(lar)ın inzibati orqana məlum olmasından 1 (bir) il müddətin keçməmiş olması) əvvəllər qəbul etdiyi qərarın tam, yaxud qismən ləğv olunması və ya dəyişdirilməsi barədə əsaslandırılmış qərar qəbul edə bilər.

5. Digər tərəfdən, qanunverici cavabdehin inzibati aktın ləğv edilməsinə və ya dəyişdirilməsinə dair müddətin axımının başlanmasını buna dair əsasın ona məlum olduğu, yəni bildiyi və ya bilməli olduğu vaxtla şərtləndirir. Bu zaman bildiyi və ya bilməli olduğu vaxtın fərqli vəziyyətlər olduğu da nəzərə alınmalıdır. Bildiyi hal elə bir hüquqi faktdır ki, inzibati orqan rəsmi mənbədən özünün əvvəlki qərarının qanunsuz olduğu nəticəsinə gəlməyə əsas verən məlumat alır. Həmin məlumatın hansı orqandan və hansı mənbədən əldə olunması hər hansı bir əhəmiyyət kəsb etmir. Bu zaman əhəmiyyət kəsb edən həmin məlumatın inzibati orqana məlum olması anıdır. Bilməli olduğu hal isə elə hüquqi faktdır ki, inzibati orqanın bu hüquqi fakt barədə məlumatının olmaması həyatın adi axarı və müvafiq sahədə tətbiq olunan yerləşmiş idarəçilik qaydaları nəzərə alındıqda, ağlabatan olmamaqla mümkünsüzdür.

6. İnzibati aktın ləğvini və ya dəyişdirilməsini şərtləndirən halların məlum olduğu vaxtın başlanğıcının düzgün müəyyən edilməsi həlledici əhəmiyyət kəsb edir. Ona görə də, məhkəmələr bu anı yalnız mötəbər sübutlara əsaslanmaqla müəyyənləşdirməlidir. Bunun üçün ilk növbədə, qanunsuzluğu iddia olunan aktın ləğv edilməsinə və ya dəyişdirilməsinə səbəb olan halın (halların) məhz nələrdən ibarət olduğu, inzibati orqanın hansı hallara istinad etdiyi dəqiq aydınlaşdırılmalıdır. Belə halların nələrdən ibarət olduğunu bildirmək vəzifəsi inzibati orqanın üzərinə düşür. Daha sonra qiymətləndirilməli olan məsələ sözügedən halın inzibati orqanın yuxarıda göstərilən bildiyi və ya bilməli olduğu hallardan hansına aid olduğunu müəyyənləşdirməkdən ibarətdir.

7. İnzibati aktın ləğv olunmasını və ya dəyişdirilməsini şərtləndirən halların inzibati orqana məlum olduğu gündən 1 (bir) il ərzində müvafiq qərar qəbul etməyə dair qanundakı imperativ göstərişin təyinatı və məqsədi subyektiv hüquqların və qanuni mənafelərin müdafiəsilə bağlı hüquqi müəyyənliyin təmin olunmasına xidmət etməklə yanaşı, həm də münasibət iştirakçılarının məsuliyyət hissinin artırılmasına, yarana biləcək laqeyd, səhlənkar münasibətin aradan qaldırılmasına və sui-istifadə hallarının qarşısının alınmasına, xüsusən də səmərəli, proqnozlaşdırıla bilən və vətəndaşların etimadının qorunduğu dövlət idarəçiliyinin təmin edilməsinə yönəlmişdir. Əks yanaşma, milli və beynəlxalq hüquqla müəyyən edilmiş sosial təminat hüququna dair insan və vətəndaş hüquqlarının pozulması ilə nəticələnə bilər. Cavabdeh inzibati orqanın əmək pensiyasının məbləğinin düzgün hesablanmadığı barədə uzun müddət hərəkətsizlik edərək susqunluq göstərməsi, etimad hüququnu zədələyəcək şəkildə özlərinin həyat şəraitlərini aldıqları pensiya təminatına görə planlaşdırmış həssas kateqoriyaya aid şəxslərin ziyanına şərh edilə bilməz. Dövlət orqanlarından etimad hüququ çərçivəsində gözlənilən onların vaxtında, uyğun və ardıcıl şəkildə hərəkət etmək öhdəliyinə riayət etmələridir. Vətəndaşlar "İnzibati icraat haqqında" Qanunun 67.6-cı maddəsində sadalanmış hallar istisna olmaqla prinsipcə, onların xeyrinə çıxarılmış yekun əlverişli inzibati aktların və həmin aktlardan irəli gələn tətbiq tədbirlərinin etibarlılığına güvənə bilməlidirlər. Həmin güvən etimad hüququnu yaratmaqla qanunla müəyyən edilmiş həddlərdə qorunur.

**Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.*

# Qanunvericiliyə edilmiş dəyişikliklər

## 1.“Məhkəmələr və hakimlər haqqında” və “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 65-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında 2025-ci ilin 23 may tarixli 204-VIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu

Hüquqi akta keçid

Dəyişikliklə Azərbaycan Respublikasının Əmək Məcəlləsində işçinin iş yeri və orta əmək haqqının saxlanıldığı hallar sırasından hakim vəzifəsinə namizədlər üçün ilkin uzunmüddətli tədris kurslarına göndərilməsi müddəası çıxarılmışdır.
Eyni zamanda “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununda məhkəmə hakimiyyəti orqanlarının və Məhkəmə-Hüquq Şurasının aparatlarında dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən Məhkəmə-Hüquq Şurasının Apellyasiya Şurasına şikayət vermək imkanı nəzərdə tutulmuşdur.
Bununla yanaşı “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının Qanununda ədliyyə orqanlarına qulluğa qəbulun şərtləri və qaydalarını və ədliyyə orqanlarında stajorluq və sınaq keçməni tənzimləyən maddələrindən hakim vəzifəsinə namizədlər üçün nəzərdə tutulmuş tədris kurslarını bitirmiş, lakin hakim vəzifəsinə təklif olunmamış şəxslərin, ədliyyə orqanlarına inzibati vəzifəyə qulluğa müsabiqəsiz qəbul edilməsi, həmçinin stajorluq və sınaq müddətinin müəyyən edilməməsi müddəaları çıxarılmışdır.

## 2. “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” 2025-ci il 13 iyun tarixli 212-VIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu

Hüquqi akta keçid

Dəyişiklik sağlamlığın qorunması hüququnun daha effektiv təmin edilməsi, həyat və sağlamlıq əleyhinə olan bəzi cinayətlərə qarşı mübarizənin gücləndirilməsi məqsədilə həyat və sağlamlıq əleyhinə olan bir sıra cinayət əməllərinin sanksiyalarında edilmişdir. Müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasına alternativ olan digər əsas cəzalar çıxarılmaqla və bu əməllərə görə sağlamlığa vurulan ağır nəticələr tövsifedici əlamətlər kimi ayrı maddələrdə nəzərdə tutulmaqla cəzalar sərtləşdirilmişdir. Səhiyyə sahəsində tibb fəaliyyəti ilə məşğul olmağı tənzimləyən yeni qaydalar qəbul edilmiş, Azərbaycan Respublikasının Cinayət və Azərbaycan Respublikasının İnzibati Xətalar məcəllələrinin müvafiq maddələrinin dispozisiyaları təkmilləşdirilərək səhiyyə qanunvericiliyində müəyyən edilmiş yeni qaydaların pozulması bu hüquqpozmaların obyekti kimi nəzərdə tutulmuşdur.

## 3. "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Notariat haqqında" və "İcra haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" 2025-ci ilin 21 iyun tarixli 216-VIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu

Hüquqi akta keçid

Qeyd olunan Qanun ilə müvafiq normativ hüquqi aktlara edilmiş dəyişikliklər vərəsəlik hüquq münasibətlərində tərəflərin – həm miras qoyanın, həm də vərəsənin hüquq və maraqlarının ədalətli şəkildə qorunmasına xidmət edəcək. Belə ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1243.2-ci maddəsində mirasın qəbulunun qeyri-formal üsulu olaraq əmlaka sahiblik etmək və ya əmlakı idarə etməyə faktiki başlamaq göstərilsə də, həmin Məcəllənin 1243.3-cü maddəsində hər iki hal müəyyən edilmədiyindən həmin hissədə müvafiq dəyişiklik edilmişdir.
Bundan başqa Azərbaycan Respublikası Mülki Məcəlləsinin "Mirasın siyahısı" adlanan 1254-cü maddəsinə də dəyişiklik edilərək, mirasın siyahıya alınması üçün nəzərdə tutulan müddətin mirasın qəbulundan imtina müddəti ilə məhdudlaşdırılması, həmçinin müvafiq hallarda müddətin axımının dayandırılmasını nəzərdə tutan əlverişli qaydalar müəyyən edilmişdir.
Bununla yanaşı miras şəriklərinə vərəsəlik şəhadətnaməsi verilməsi zamanı şəhadətnamə almaq üçün müraciət etməmiş şəxslərin də hüquqları təmin ediləcəkdir. Notarius vərəsəlik şəhadətnaməsinin əldə olunması üçün müraciət edən vərəsəyə şəhadətnamə verərkən vərəsə olan, lakin şəhadətnamə almaq üçün müraciət etməmiş digər vərəsələrin (miras şəriklərinin) də mirasdan onlara çatacaq paylarını müəyyən edərək həmin şəhadətnamədə göstərəcəkdir. Dəyişikliyə əsasən vərəsə müəyyən olunmuş müddət ərzində mirasın qəbulundan imtina etmədikdə miras vərəsə tərəfindən qəbul edilmiş sayılacaqdır.

## 4. "İcra məmurları haqqında", "İcra haqqında" və "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə 2025-ci ilin 24 iyun tarixli 223-VIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu

Hüquqi akta keçid

Dəyişikliyin əsas mahiyyəti ədliyyə orqanlarının xüsusi xəzinə hesabının yaradılmasından ibarətdir. Bu hesabın yaradılmasında məqsəd nazirliyin hesabına daxil olan maliyyə vəsaitlərinin vahid hesaba cəmlənməsi, həmin vəsaitlər hesabına ədliyyə orqanlarında çalışan əməkdaşların maddi təminatının və sosial müdafiəsinin gücləndirilməsidir.
Digər bir dəyişikliklə icra sənədi könüllü icra üçün müəyyən olunmuş vaxtda borclu tərəfindən üzrsüz səbəbdən icra edilmədikdə, icra məmurunun borcludan tutmalı olduğu pul məbləğinin miqdarı artırılır. Bu halda alınmalı olan icra ödənişinin məbləği 7 faizdən 10 faizə qaldırılır. Qanuna edilən digər bir dəyişikliyə görə isə qeyri-əmlak xarakterli tələbin nəzərdə tutulduğu icra sənədi icra edilmədikdə, borclu fiziki şəxsdən 100 manat, borclu hüquqi şəxsdən isə 500 manat miqdarında icra ödənişi alınacaq. Əvvəlki qanuna görə bu məbləğ müvafiq olaraq 11 və 55 manat idi.
Dəyişikliklərdən biri də odur ki, icra məmuru vəzifəsinə qulluğa qəbul üçün ali hüquq təhsili tələbi götürülür. Eyni zamanda icra məmurlarının işə qəbul prosesi müvafiq dəyişikliklərlə təkmilləşdirilmişdir.

Hüquqi akta keçid

## 5. “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” 2025-ci ilin 24 iyun tarixli 225-VIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu

Dəyişikliyin əsas məqsədi inzibati xətalarla bağlı protokolların və qərarların elektron qaydada izlənilməsini, mərkəzləşdirilmiş qaydada qeydiyyatının aparılmasını və bununla da inzibati cərimələrdən daxil olan vəsaitlərin şəffaflığını və hesabatlılığını təmin etmək üçün “İCMAL” adlı informasiya sisteminin yaradılmasıdır.
Belə ki, “İCMAL” informasiya sistemində inzibati xətalar haqqında protokollara və qərarlara (qərardadlara) unikal nömrə verilməklə real vaxt rejimində və avtomatlaşdırılmış qaydada izləniləcək. Buna görə də əlavə edilən 45-2-ci maddədə səlahiyyətli orqanlar tərəfindən inzibati xətalar haqqında protokollar və qərarlar (qərardadlar) barədə məlumatların “İCMAL” informasiya sisteminə ötürülməsi nəzərdə tutulmuşdur. 57-1-ci maddədə barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin sənədlər barədə məlumatlandırılması formalarından bəhs olunub. Bundan başqa 16-1-ci fəslin adı və həmin fəsildə əks olunan 127-3 və 127-4-cü maddələr yeni redaksiyada verilərək təkmilləşdirilmişdir. Cərimələrin vaxtında ödənilməsini təşviq etmək, gecikmələrin qarşısını almaq məqsədilə əlavə olunan 150.1-1-ci maddəyə əsasən bütün inzibati xətalara görə inzibati cərimə növündə inzibati tənbeh vermə haqqında səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarı qüvvəyə mindiyi gündən 10 gün müddətində icra edilərsə, tətbiq olunan cərimənin 10 faizi məbləğində ödənişdən azadolma tətbiq edilir. Bundan başqa bir sıra texniki və dəqiqləşdirmə xarakterli dəyişikliklər edilmişdir.

Hüquqi akta keçid

## 6. “Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında”, “Dövlət rüsumu haqqında”, “Reklam haqqında”, “Lisenziyalar və icazələr haqqında”, “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” və “Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” 2025-ci il 8 iyul tarixli 240-VIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu

2024-cü ilin mayın 7-də “Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilib. Tikinti məqsədləri üçün süni torpaq sahələrinin yaradılması ilə bağlı ictimai münasibətləri tənzimləyən həmin Qanun süni torpaq sahələrinin yaradılmasının təşkilati və hüquqi əsaslarını və süni torpaq sahələrindən istifadənin, o cümlədən süni torpaq sahələrində tikinti aparılmasının xüsusiyyətlərini müəyyən edib.
Dəyişiklik süni torpaq sahələrində sahibkarlıq fəaliyyətinin tənzimlənməsini, o cümlədən süni torpaq sahələrində kazino oyunlarının keçirilməsinin hüquqi və təşkilati əsaslarını müəyyən edilməsini nəzərdə tutur. Belə ki, süni torpaq sahələrində sahibkarlığın təşviqi və inkişafı məqsədilə investisiya fəaliyyətinin həyata keçirilməsi üçün şərait yaradılması təmin edilir. Dəyişikliyə əsasən Azərbaycan Respublikasında

kazino oyunları bu Qanunun tələbləri nəzərə alınmaqla, yalnız süni torpaq sahələrində təşkil edilə və keçirilə bilər.
Qanunda kazino oyunlarının təşkil edilməsi və keçirilməsi ilə bağlı çox ciddi hüquqi tənzimləmə müəyyən olunub.
Belə ki, pul uduşlu oyunların keçirildiyi əyləncə yerləri sərt lisenziyalaşma əsasında fəaliyyət göstərəcəklər. Bu "Lisenziyalar və icazələr haqqında" Qanuna dəyişikliklərdə əksini tapır. Lisenziyaların alınmasına görə yüksək məbləğdə dövlət rüsumunun müəyyən edilməsi də bu sahədə məhdudiyyətin bir göstəricisidir. Belə ki, rüsumun məbləği hər il təkrar ödənilmək şərti ilə 340 min manat təşkil edir. Bu məqsədlə "Dövlət rüsumu haqqında" Qanuna dəyişikliklər olunmuşdur. İcazə və lisenziya tələb olunan fəaliyyət sahələrindən heç biri bu məbləğdə dövlət rüsumuna cəlb edilmir.
Dəyişiklikdə kazino oyunlarının təşkilatçısına da dair xüsusi şərtlər əks olunub. İlk növbədə qeyd olunmalıdır ki, bu oyunların təşkilatçısı qismində yalnız hüquqi şəxslər çıxış edə bilərlər.

## 7. "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" və "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə 2025-ci il 8 iyul tarixli Azərbaycan Respublikasının Qanunu

Hüquqi akta keçid

Qüvvədə olan qanunvericiliyə əsasən Qeyri-Hökumət Təşkilatları tərəfindən malların satışından, xidmətlər göstərilməsindən, işlər görülməsindən daxilolmalar müqavilə əsasında həyata keçirilir. Xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilə qeydə alınması üçün Qeyri-Hökumət Təşkilatları tərəfindən müvafiq icra hakimiyyəti orqanına təqdim olunur. Dəyişikliyə əsasən qeydiyyata alınmamış xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilələrdən irəli gələrək bank əməliyyatlarının və hər hansı digər əməliyyatların aparılması məhdudlaşdırılır. Habelə xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında qeydiyyata alınmamış müqavilə üzrə xidmətlər göstərən və ya işlər görən, yaxud bununla əlaqədar maliyyə vəsaiti və başqa maddi formada vəsait qəbul edilməsi müvafiq qaydada inzibati məsuliyyətə səbəb olur. Digər dəyişikliklər yuxarıda qeyd olunan dəyişikliklərə uyğunlaşdırma məqsədi daşıyır.

## 8.“Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında”, “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” və “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında 2025-ci il 14 iyul tarixli 251-VIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu

Hüquqi akta keçid

Dəyişikliklər Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsinin Beynəlxalq Mülki Aviasiya Təşkilatının (İCAO) standartının tələblərinə uyğunlaşdırılması, həmçinin şəxsiyyət vəsiqəsinin istifadəsi üzrə yaranmış bəzi çətinliklərin aradan qaldırılması məqsədilə edilmişdir. Dəyişikliklə şəxsiyyət vəsiqəsi ilə bağlı məlumatların daha müasir sistemlərdə, təhlükəsiz və çevik şəkildə idarə olunması, sənədləşmə prosedurlarının və xidmətlərin vətəndaş üçün sadələşdirilməsi təmin ediləcək.
Eyni zamanda elektron daşıyıcıda (çipdə) əvvəlki variantla müqayisədə yalnız daha zəruri məlumatların saxlanılması müəyyən edilmişdir.
Digər dəyişiklik ondan ibarətdir ki, vətəndaşın ailə vəziyyəti, valideynləri, uşaqları, hərbi vəzifəsi və digər məlumatlar artıq birbaşa elektron daşıyıcıda deyil, İAMAS (İdarələrarası Avtomatlaşdırılmış Məlumat Axtarış Sistemi) vasitəsilə saxlanılacaq və kriptoqrafik mühafizə olunacaq. Bu, onların məxfiliyinin, bütövlüyünün və icazəsiz müdaxilədən qorunmasının təmin olunması məqsədini daşıyır.

Hüquqi akta keçid

## 9. Azərbaycan Respublikasının 2025-ci il 1 iyul tarixli 429 nömrəli Fərmanı

“Məhkəmələr və hakimlər haqqında” və “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 65-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 1 iyul tarixli 429 nömrəli Fərmanın 1-ci bəndi ilə “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1-ci bəndi aşağıdakı redaksiyada verilmişdir:
“3.23-1. həmin Qanunun 29-1-ci maddəsində nəzərdə tutulmuş qurum mərkəzi icra hakimiyyəti orqanlarında, onların yanında yaradılan dövlət agentliklərində və dövlət xidmətlərində, habelə mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanlarda dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən verilən şikayətlərə münasibətdə – həmin mərkəzi icra hakimiyyəti orqanlarında yaradılmış apellyasiya şuralarıdır;”.
Həmin Fərmanın 2-ci bəndi ilə Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə”nin 8.16-2-ci və 9.35-2-ci bəndləri aşağıdakı redaksiyada verilmişdir:
“8.16-2. ilk dəfə hakim təyin olunmuş şəxslərin təliminin həyata keçirilməsini təmin edir;”;
“9.35-2. ilk dəfə hakim təyin olunmuş şəxslərin təliminin həyata keçirilməsini təmin etmək;”.
Fərmanın 3-cü bəndi ilə Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 dekabr tarixli 673 nömrəli

Fərmanı ilə təsdiq edilmiş "Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqənin və müsahibənin keçirilməsi qaydaları haqqında Əsasnamə"nin 1.7.5-ci yarımbəndi ləğv edilmişdir.
Fərmanın 4-cü bəndi ilə Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 21 noyabr tarixli 24 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının Nizamnaməsi"ndə uyğunlaşdırma xarakterli dəyişiklik edilərək, 19-2-ci bənd aşağıdakı redaksiyada verilmişdir:
"19-2. İlk dəfə hakim təyin olunmuş şəxslər təyin edildikdən dərhal sonra peşə hazırlığı məqsədilə Akademiyada Məhkəmə-Hüquq Şurası tərəfindən müəyyən olunmuş qaydada təlimə cəlb edilirlər.";

Hüquqi akta keçid

## 10. Azərbaycan Respublikasının 2025-ci il 16 iyul tarixli 445 nömrəli Fərmanı

Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 223-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə Fərmanın 1-ci bəndi ilə "İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun və "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun müvafiq maddələri üzrə "orqan (qurum)", "müvafiq icra hakimiyyəti orqanı" və "müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsi" dedikdə səlahiyyətlərin hansı orqan tərəfindən həyata keçiriləcəyi müəyyən edilmişdir.
Fərmanın 2-ci bəndi ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 223-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etməsi tapşırılmışdır.
Bundan başqa Fərmanın 3-cü bəndi ilə Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 5 yanvar tarixli 246 nömrəli Fərmanının 2-ci hissəsinə və 5-ci bəndi ilə Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 iyul tarixli 430 nömrəli Fərmanının 2-ci hissəsinə "orqan (qurum)", "müvafiq icra hakimiyyəti orqanı" "müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsi" dedikdə səlahiyyətlərin hansı orqan tərəfindən həyata keçirəcəyini müəyyən edən yeni bəndlər əlavə edilmişdir.
Eyni zamanda Fərmanın 5.3-cü bəndi ilə aşağıdakı məzmunda 2.11-ci bənd əlavə edilmişdir:
"2.11. həmin Qanunun 25-1.1-ci maddəsində nəzərdə tutulan vəsait aşağıdakı kimi bölüşdürülür:
2.11.1. 60 faizi dövlət büdcəsinə köçürülməklə həmin vəsait tam həcmdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən ədliyyə orqanlarının xüsusi rütbəsi olan əməkdaşlarının və digər işçilərinin aylıq vəzifə maaşlarına əlavənin verilməsinə sərf edilir;
2.11.2. bu Fərmanın 2.11.1-ci yarımbəndi nəzərə alınmaqla, qalan hissəsi həmin Qanunun 25-1.2.1-ci, 25-1.2.3–25-1.2.6-cı maddələrində nəzərdə tutulan məqsədlərə sərf edilməsi üçün Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin hesabına köçürülür.".

Hüquqi akta keçid

## 11.Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2025-ci il 19 iyun tarixli Qərarı

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumu 2025-ci il 19 iyun tarixdə Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 33-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Bakı Apellyasiya Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsi baxımından müqavilə öhdəlikləri üzrə iddia müddətinin axımının başlanması anına münasibətdə Azərbaycan Respublikası Mülki Məcəlləsinin 377-ci maddəsinin şərh edilməsinə dair konstitusiya işinə baxaraq qərar qəbul etmişdir.

Hüquqi akta keçid

## 12.Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2025-ci il 20 iyun tarixli Qərarı

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumu 2025-ci il 20 iyun tarixdə Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 33-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Bakı Apellyasiya Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinin I hissəsinin və 29-cu maddəsinin I və II hissələrinin tələbləri baxımından Azərbaycan Respublikası Mülki Məcəlləsinin 329, 340.2 və 661-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxaraq qərar qəbul etmişdir.